**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin 2021-ci il üzrə fəaliyyətinə dair hesabatı**

2021-ci il ərzində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin vəzifəli şəxsləri tərəfindən vətəndaşlardan daxil olmuş müraciətlərin, müəssisə, idarə və təşkilatlardan göndərilən sorğu xarakterli məktubların araşdırılaraq cavablandırılması, istehsalatda baş verən bədbəxt hadisələrin mövcud qanunvericiliklə müəyyən edilmiş qaydada təhqiqatının aparılması təmin olunmuşdur.

Xidmət tərəfindən 2021-ci il ərzində "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq vətəndaşlardan daxil olmuş 13 145 şikayət məzmunlu ərizə, eləcə də müxtəlif müəssisə, idarə və təşkilatlar tərəfindən göndərilmiş 7 604 məktub tərəfimizdən araşdırılaraq cavablandırılmışdır.

"Əmək müqaviləsi bildirişi" altsisteminin fəaliyyəti ilə bağlı dövlət orqanları, işəgötürənlər və vətəndaşlardan daxil olan 4715 müraciət tərəfimizdən qanunvericiliyin tələblərinə uyğun olaraq cavablandırılmış və onlara texniki yardımın göstərilməsi təmin olunmuşdur.

Xidmət tərəfindən görülmüş tədbirlərin nəticəsi olaraq vətəndaşlara gecikdirilmiş və ödənilməli olan 1 257 405,00 manat məbləğində vəsaitin ödənilməsi təmin edilmişdir.

Ümumi ödənişlərdən:
98,5%-i (1 238 810,63 manat)- əmək haqqı;
0,9 %-i (11 132 manat)- zərərə görə ödənc;
0,6%-i (7 462,37 manat)-sosial müavinətlər və kompensasiyadan ibarət olmuşdur.

Hesabat dövründə əmək müqavilələrinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verilmiş 34 nəfər öz əvvəlki işlərinə bərpa edilmiş, bu işçilər barəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması təmin edilmişdir.

2021-ci il ərzində Dövlət Əmək Müfəttişliyi Xidmətinin təsdiq edilmiş iş planına uyğun olaraq əməyin mühafizəsi normalarına əməl olunması, əmək müqaviləsinin bağlanması, müqavilələrin şərtlərinin dəyişdirilməsi və xitam verilməsinin əsasları, əmək qanunvericiliyinin tətbiq olunması mövzularına həsr olunmuş 30 sayda onlayn maarifləndirmə tədbiri keçirilmişdir. Tədbirlərdə 2 000-dən çox işəgötürən və onun nümayəndəsinin iştirakı təmin edilmişdir.

Beynəlxalq Maliyyə Korporasiyasının xətti ilə Azərbaycan Respublikasında həyata keçirilən “Azərbaycan investisiya iqlimi və aqrobiznes rəqabətliliyi layihəsi”nin “Azərbaycanın yoxlama sistemi islahatının konsepsiyası” komponenti çərçivəsində, eləcə də “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 28 avqust tarixli 955 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədilə beynəlxalq ekspertlərin rəy və tövsiyələri nəzərə alınmaqla “Əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti üzrə risk qruplarının müəyyənləşdirilməsi meyarlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar layihəsi hazırlanmışdır. Qərar layihəsi 2021-ci il 16 aprel tarixli 21030039860 nömrəli məktubla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

Xidmət tərəfindən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi ilə bağlı 2 qanun layihəsi hazırlanmış və Milli Məclis tərəfindən qəbul edilmişdir.

Cari ildə Xidmətdə İSO təşkilatının (Beynəlxalq Standartlaşdırma Təşkilatı) “**İSO 37001 standartının** (anti-korrupsiya siyasəti və korrupsiyaya qarşı mübarizə idarəetmə sistemi) tətbiqi üzrə tədbirlər görülmüş, ilin sonunda bütün işlər yekunlaşdırılaraq sertifikat Xidmət tərəfindən əldə edilmişdir.